# AZƏRBAYCANDA GİROV QƏTİMKAN TƏDBİRİNİN TƏTBİQİNƏ DAİR HESABAT

**Müəllif: Mətanət Dünyamalıyeva**

**Ekspert: Yalçın İmanov**

**Baku – 2022**

# Mündəricat

1. Xülasə ........ 3
2. Giriş ........ 4
3. Metodologiya ........ 6
4. Qanunvericiliyin monitorinqi ........ 7
   Yerli qanunvericilik ........ 7
   Beynəlxalq qanunvericilik ........ 12
5. Regional müqayisə ........ 17
6. Praktikada vəziyyət ........ 21
   İnformasiya sorğuları və nəticələri ........ 21
   Vəkillər arasında keçirilən sorğu və nəticələri ........ 22
7. Nəticə ........ 24
8. Tövsiyələr ........ 26

# 1. Xülasə

Girov qətimkan tədbiri 2000-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsinə (CPM) daxil edilib və qətimkan tədbirlərindən biri olmaqla təqsirləndirilən şəxslər barəsində təbiq edilir.

Girov qətimkan tədbiri azadlıq və toxunulmazlıq, eləcə də ədalətli məhkəmə araşdırması hüququ ilə sıx əlaqəlidir. Belə ki, girov qətimkan tədbirinin tətbiqinin artması həbs qətimkan tədbirinin seçilməsinin azalmasına səbəb olacaq ki, bu da öz növbəsində həm azadlıq və toxunulmazlıq hüququnun daha yaxşı təminatına, həm də cinayət mühakimə icraatının humanistləşməsinə töhvə verəcəkdir.

Bu günə qədər girovla bağlı ətraflı araşdırmanın olmaması, bu mövzunu nəzərdən keçirməyə təşviq etmişdir. Araşdırmanı etməkdə məqsədimiz girov qətimkan tədbirini tənzimləyən qanunvericiliyi, həmin qanunvericiliyin praktikadakı tətbiqini qiymətləndirmək və girov qətimkan tədbirinin əhatə dairəsini genişləndirmək üçün tövsiyələr verməkdir.

Mövcud vəziyyətin dəyərləndirilməsi üçün ilk olaraq girov qətimkan tədbirinin yerli və beynəlxalq qanunvericilikdəki statusu qiymətləndirilmişdir. Daha sonra praktikadakı vəziyyəti öyrənmək üçün Bakı şəhərinin rayon məhkəmələrinə informasiya sorğusu göndərilmiş və vəkillər arasında sorğu keçirilmişdir.

Qanunvericiliyə əsasən girov sadəcə Cinayət-Prosessual Məcəllə ilə tənzimlənir.  Halbuki, bu qətimkan tədbirinin mexanizminin təkmilləşdirilməsi və təşviqi üçün daha geniş normativ bazaya ehtiyac var.

Praktikada apardığımız araşdırma isə göstərir ki, girov qətimkan tədbiri ilə bağlı normalar "ölü norma"ya çevrilib və reallıqda tətbiq olunmur.

Hesabatın sonunda aşağıdakı tövsiyələr verilmişdir:

- Qanunvericilikdəki boşluqlar və qeyri-müəyyənlik aradan qaldırılmalıdır;
- Girov məbləğinin miqdarı aşağı salınmalı və minimum əmək haqqı ilə uyğunlaşdırılmalıdır;
- Girov qətimkan tədbirinin tətbiqi ilə bağlı vahid məhkəmə təcrübəsi formalaşdırılmalıdır;
- Girov qətimkan tədbirinin tətbiqinə start vermək və genişləndirilmək üçün təşəbbüskarlıq göstərilməlidir;
- İbtidai istintaqı həyata keçirən orqanların fəaliyyətinə nəzarət artırmalıdır.

# 2. Giriş

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 154.2.3 və 154.3-cü maddələrinə əsasən girov, qətimkan tədbirlərindən biri olmaqla yalnız təqsirləndirilən şəxslər barəsində təbiq edilir.

Girov qətimkan tədbirinin anlayışı, CPM-in 164.1-ci maddəsinə əsasən məhkəmə tərəfindən müəyyən edilmiş pul məbləğini (qiymətli kağız) və ya digər qiymətli əşyaları dövlət bankında məhkəmənin depozitinə qoymaqdan ibarətdir.

Aparılmış statistik araşdırmalara əsasən girov qətimkan tədbiri Məcəlləyə daxil olunduğu vaxtdan bu günə kimi heç vaxt tətbiq olunmayıb və bunun bir sıra təməl səbələri göstərilir. Məsələn, girovun məbləğinin yüksək olması, Azərbaycanda ədalət mühakiməsinin, ədalətli məhkəmə araşdırmasının standatlarına cavab verməməsi, məhkəmələrə prokurorluq orqanlarının real təsiri, qanunvericilikdə müəyyən edilən qaydaları pozanlar barəsində ciddi tədbirlərin görülməməsi və s.

Halbuki, girov qətimkan tədbirinin geniş tətbiqi bir çox problemləri aradan qaldıra bilər: həbs qətimkan tədbirinin alternativi kimi dövləti həbs edilmiş şəxsləri həbs yerlərində saxlamaq üçün yüksək xərclərdən azad edə, təqsirləndirilən şəxsləri sosial bağların qopması və kriminogen mühitə düşmə kimi problemlərdən qoruya bilər və s.

Girov qətimkan tədbirinin əhəmiyyətinin digər bir göstəricisi həmçinin onun azadlıq və toxununlmazlıq və ədalətli məhkəmə araşdırması hüququ ilə əlaqəsidir. Belə ki, girov qətimkan tədbirinin tətbiqi genişləndirilərsə, azadlıq və toxunulmazlıq hüququ bir o qədər yüksək səviyyədə təmin olunmuş olar, yəni, bu qətimkan tədbiri geniş tətbiq olunduqca həbs qətimkan tədbirinin tətbiqində azalma baş verə bilər.

Ədalətli məhkəmə araşdırması hüququ ilə əlaqəsini proses üzrə izah edək:

Təqsirləndirilən şəxsin razılığı ilə müdafiə tərəfi (vəkil) girov qətimkan tədbirinin seçilməsi ilə bağlı vəsatət qaldırır və onun seçilməsinə dair qərarı isə məhkəmə verir. Məhkəmə qərar verərkən işin hallarnı: şəxsin təqsirlilik səviyyəsini, ailə və maddi vəziyyətini və s. müstəqil şəkildə ətraflı araşdırmalıdır. Yəni, girov qətimkan tədbirinin tətbiq səviyyəsi ədalətli məhkəmə araşdırması hüququna riayət olunma səviyyəsini göstərir.

Girov qətimkan tədbirinin tətbiqi vəziyyətinin geniş və ciddi islahatlara ehtiyac duyduğunu göstərən əyani sübut ölkə prezidentin 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi

barədə" Sərəncamıdır[1]. Bu sənəddə elan edilən hər bir göstəriş və tövsiyələrin məzmununa diqqət yetirilsə, problemin səbəblərini görmək olar. Məsələn, Sərəncamın 8 və 9-cu bəndlərində göstərilir:

> *8. İbtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı həbsin tətbiq edilməsi əsaslarına dair cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi əməl olunsun, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqi genişləndirilsin;*
>
> *9. Cinayət qanunvericiliyinin prinsiplərinə və cəza təyin etmənin ümumi əsaslarına ciddi riayət edilsin, cinayət təqibi və cəzaların icrası zamanı qeyri-prosessual münasibətlərə yol verilməsin, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizədə daha ciddi tədbirlər görülsün.*

Bu bəndlərə əsasən səbəb qismində həmçinin qeyri-prosessual münasibətlərə yol verilməsi, korrupsiya, vəzifədən sui-istifadə, ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən qətimkan tədbirlərinin seçilməsi zamanı cinayət-prosessual qanunvericiliyin müddəalarına ciddi şəkildə əməl olunmaması, həbs qətimkan tədbirinin xüsusi vurğulanaraq əsassız şəkildə tətbiq hallarının genişliyi, bunun əksinə olaraq alternativ qətimkan tədbirlərinin tətbiqinin zəif olması və s. göstərmək olar.

Sərəncamda mövcud vəziyyətin aradan qaldırılması ilə bağlı Baş Prokurorluq, Ali Məhkəmə, eləcə də digər məhkəmələrə tövsiyələr, Ədliyyə Nazirliyinə isə bir sıra tapşırıqlar verilmişdir.

Göstərilənlərə əsasən deyə bilərik ki, hesabatda əsas diqqət girov qətimkan tədbirinin tətbiqi vəziyyətindəki ağır vəziyyətə, bunun səbəblərinə, yerli və beynəlxalq qanunvericilikdəki mövqeyinə, digər ölkələrdə bu qətimkan tədbirinin vəziyyətinə ayrılacaq.

[1] https://e-qanun.az/framework/34809 Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

# 3. Metodologiya

Mövcud vəziyyətin dəyərləndirilməsi üçün ilk olaraq girov qətimkan tədbirinin yerli və beynəlxalq qanunvericilikdəki statusu qiymətləndirilmişdir. Daha sonra tətbiq hissəsindəki ümumi vəziyyəti müəyyənləşdirmək üçün vəkillər arasında sorğu keçirilmiş, həmçinin məhkəmələrə sorğular göndərilmiş və müqayisələr, təhlillər, sorğular nəticəsində əldə olunan məlumatlara əsasən sözügedən qətimkan tədbirinin tətbiqi ilə bağlı yaranmış problemlər, bunun səbəbləri və nəticələri işıqlandırılmışdır (Onu da qeyd edək ki, girov qətimkan tədbirinin tətbiqi ilə bağlı media məlumatları olmadığı üçün media monitorinqini həyata keçirmək mümkün olmamışdır). Həmçinin bir sıra keçmiş SSRİ ölkələrinin cinayət prosessul qanunvericiliyndə girov qətimkan tədbirinin anlayışı, tətbiqi əsasları və s. araşdırılmışdır.

# 4. Qanunvericiliyin monitorinqi

Girov qətimkan tədbiri azadlıq və toxunulmazlıq və ədalətli məhkəmə araşdırması hüququ ilə əlaqəlidir. Azərbaycan Respublikası Konstitusiyasının[2] 7 və 28-ci maddələrinə əsasən məhkəmə hakimiyyəti dövlət hakimiyyət qollarından biri olmaqla öz səlahiyyətləri çərçivəsində müstəqildir və hər kəsin azadlıq hüququ vardır və bu hüquq yalnız qanunla nəzərdə tutulmuş qaydada məhkəmə qərarı ilə tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər. Girov qətimkan tədbirini tənzimləyən təməl yerli akt Cinayət-Prosessual Məcəllədir. Məcəllədə girov qətimkan tədbirinin anlayışı, tətbiq halları, girovun məbləği və s. təsbit olunur. Digər tənzimləyici yerli aktlar sırasına Ali Məhkəmənin Plenum Qərarı ("Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" 3 noyabr 2009-cu il tarixli Qərar) da daxil edilə bilər ki, həmin sənəddə də CPM-də girov qətimkan tədbiri ilə bağlı olan maddələrlə əlaqəli izahedici məqamlar yer alır. Girov qətimkan tədbiri ilə bağlı beynəlxalq tənzimləyici aktlara isə Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarları və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (Avropa İnsan Hüquqları Konvensiyası) 5-ci maddəsi aiddir. Burada girov qətimkan tədbiri ilə bağlı məhkəmələr tərəfindən qanunvericiliyə əməl olunması, girov qətimkan tədbirinin düzgün tətbiqi ilə bağlı AİHM-in qənaətləri, tövsiyələri və müəyyən etdiyi meyarlar nəzərdə tutulur.

## Yerli qanunvericilik

Girov qətimkan tədbirlərindən biri olmaqla cinayət mühakimə icraatının tərkib hissəsidir. Bu hissədə ilkin olaraq cinayət mühakimə icraatın prinsiplərinə və bütün qətimkan tədbirləri üçün keçərli olan qaydalara nəzər salacağıq.

**Cinayət mühakiməsinin əsas prinsipləri.** Cinayət mühakimə icraatının qanuni və əsaslı şəkildə həyata keçirilməsini təmin etmək üçün CPM[3]-in 10-36-cı maddələrində bir sıra prinsiplər sadalanır: qanunçuluq, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi, konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi, şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, azadlıq hüququnun təmin edilməsi və s. Xüsusilə də, Məcəllənin 12 və 14-cü maddələrində təsbit olunan prinsiplər (Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının və azadlıq hüququnun təmin olunması) insan hüquqlarına qanunsuz müdaxilənin qarşısını almaq məqsədi danışıyır.

**Qətimkan tədbiri** cinayət işi üzrə icraatda şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etmək məqsədilə tətbiq olunur (CPM-in 154.1-ci maddəsi). Azərbaycan cinayət prosessual qanunvericiliyində girov da daxil olmaqla 10

[2] https://www.e-qanun.az/framework/897 Azərbaycan Respublikası Konstitusiyası
[3] https://www.e-qanun.az/framework/46950 Cinayət-Prosessual Məcəlləsi

qətimkan tədbiri nəzərdə tutulur, üç qətimkan tədbiri (həbs, girov və ev dustaqlığı) yalnız təqsirləndirilən şəxs barəsində seçilə bilər, doqquz qətimkan tədbiri əsas qətimkan tədbirləridir və biri digərilə birlikdə seçilə bilməz.

Əgər təqsirləndirilən və ya şübhəi şəxsin aşağıdakı hərəkətləri edəcəyinə əsas vermək üçün kifayət qədər sübut varsa, təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə qətimkan tədbirinin tətbiqi barədə qərar qəbul edə bilər (CPM-in 155.1-ci maddəsi):

- cinayət prosesini həyata keçirən orqandan gizlənmək;
- cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;
- cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;
- cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq;
- məhkəmə hökmünün icra edilməsinə maneə törətmək.

"Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 3 noyabr 2009-cu il tarixli Qərarında[4] tapşırılır ki, məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız CPM-nin 155-ci maddəsində göstərilən prosessual əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

CPM 155.2-ci maddəsi də məhkəmələrə qətimkan tədbirini seçərkən aşağıdakı amilləri nəzərə almağı tapşırır:

- əməlin ağırlığı, xarakteri və törədilmə şəraiti;
- şəxsin şəxsiyyəti, yaşı və səhhəti, məşğuliyyəti, ailə, maddi və sosial vəziyyəti, o cümlədən himayəsində şəxslərin və daimi yaşayış yerinin olması;
- əvvəllər cinayətin törədilməsini və qətimkan tədbirinin seçilməsini;

[4] https://e-qanun.az/framework/19147 "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" AR Ali Məhkəməsi Plenumun 3 noyabr 2009-cu il tarixli qərarı

- şübhəli və ya təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edib-etməməsi, cinayət nəticəsində vurulmuş ziyanın ödənilib-ödənilməməsini və ya digər əhəmiyyətli halları.

**Qətimkan tədbirlərinin proseduru**

Qətimkan tədbirləri təhqiqatçının, müstəntiqin, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun və ya məhkəmənin qərarına əsasən seçilir. Belə ki, cinayət işini icraata qəbul etmiş təhqiqatçı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror əvvəlcə digər şəxslər tərəfindən tətbiq edilmiş qətimkan tədbirinin qanuniliyini və dəyişdirilmədən saxlanılmasının zəruriliyini yoxlamalı və müvafiq qərar çıxarmalıdır (CPM-in 174-cü maddəsi). Burada iki istisna var:

- Hakimlərin qətimkan tədbirlərinin tətbiq edilməsi ilə bağlı qərarını digər şəxslərin (müstəntiq, prokuror, təhqiqatçı) yoxlamaq səlahiyyəti yoxdur;
- Təhqiqatçı və müstəntiqin prokurorun qərarını yoxlamaq səlahiyyəti yoxdur.

Məhkəmə ibtidai istintaqı başı çatmış işi öz icraatına qəbul etdikdən sonra məhkəməyədək icraatın gedişində tətbiq edilmiş qətimkan tədbirini öz qərarı ilə təsdiq edir və ya ləğv edir, yaxud dəyişdirir (CPM-in 174.2-ci maddəsi).

Cinayət prosesini həyata keçirən orqan qətimkan tədbiri seçilməsi barədə qərarı şübhəli və ya təqsirləndirilən şəxsə (axtarışda olan şəxs istisna edilməklə) dərhal elan edir və qərarın surətini ona təqdim edir (CPM-in 156.3-cü maddəsi). Qərarda aşağıdakılar əks olunmalıdır:

- şəxsin şübhəli bilindiyi və ya itiham olunduğu cinayəti törətməsinə əsaslı şübhələr;
- müvafiq qətimkan tədbirinin tətbiq əsaslarının mövcudluğuna dəlalət edən ilkin sübutlar.

Aşağıdakı subyektlər cinayət prosesini həyata keçirən orqanın qətimkan tədbirinin seçilməsi və ya dəyişdirilməsi barədə qərarından ibtidai araşdırmağa prosessual rəhbərliyi həyata keçirən prokurora, yaxud məhkəməyə şikayət verə bilər (CPM-in 173-cü maddəsi);

- şübhəli və ya təqsirləndirilən şəxs;
- onun müdafiəçisi və ya qanuni nümayəndəsi;
- cinayət prosesinin digər maraqlı iştirakçıları.

*Qeyd:* Yalnız məhkəməyədək icraat zamanı qətimkan tədbirinin seçilməsi barədə məhkəmə qərarından apellyasiya instansiyası məhkəməsinə şikayət verilə bilər (CPM-in 173.2-ci maddəsi).

Məcəllənin 175.3-cü maddəsinə əsasən məhkəmənin həbs, ev dustaqlığı, girov qismində seçdiyi qətimkan tədbiri yalnız məhkəmə tərəfindən dəyişdirilə və ya ləğv oluna bilər. Burada göstərilən hal üçün həbs və ev dustaqlığında müəyyən istisna olsa da, girov qətimkan tədbirində istisnasız qayda göstərildiyi kimidir.

Qətimkan tədbirinin dəyişdirilməsi (əvəzlənməsi) dedikdə, daha ciddi və ya daha yüngül qətimkan tədbirinin seçilməsi başa düşülür:

- daha ciddi qətimkan tədbiri ilə əvəzləmə - bunun zəruriliyini cinayət prosesini həyata keçirən orqan tərəfindən öz səlahiyyəti daxilində sübutlarla təsdiq etməlidir;

- daha yüngül qətimkan tədbiri ilə əvəzləmə - şübhəli və ya təqsirləndirilən şəxs lazımi qaydada özünü apararsa, hökmun icrasına nail olmaq mümkün olduqda həyata keçirilir.

CPM-in 175.2-ci maddəsinə əsasən isə qətimkan tədbirinin tətbiqinə zərurət aradan qalxdıqda cinayət prosesini həyata keçirən orqan öz səlahiyyəti daxilində onu ləğv edir.

**Girov qətimkan tədbiri** CPM-155.1-ci maddəsində nəzərdə tutulan hallarda şübhəli və təqsirləndirilən şəxs barəsində seçilən prosessual məcburiyyət tədbiridir. Girov qətimkan tədbiri əsas qətimkan tədbirlərindən biri olmaqla digər qətimkan tədbirləri ilə birlikdə seçilə bilməz.

Girovun məqsədi şəxsin cinayət prosesini həyata keçirən orqanın sərəncamında qalmasını təmin etməkdir (CPM-in 164.1-ci maddəsi).

Girov qətimkan tədbiri müdafiə tərəfinin vəsatəti əsasında məhkəmə tərəfindən qətimkan tədbiri seçilərkən, qətimkan tədbirinin uzadılması və ya əvəzlənməsi tədbirinə baxılarkən seçilir.

Girov qətimkan tədbirinin seçilməsinin əsasları və bunu həyata keçirən səlahiyyətli orqanın nəzərə almalı olduğu hallar da digər qətimkan tədbirləri ilə eynilik təşkil edir.

Məhkəmə girov qətimkan tədbirini təqsirləndirilən şəxsin cəmiyyətdən tam təcrid edilməsinə və ya həbsdə saxlanılmasına zərurət olmadığı qənaətinə gəldikdə (CPM-in 157.5-ci maddəsi) və aşağıdakı cinayətlərdə itttiham olunan şəxslər barəsində seçə bilər (CPM-in 164.1-ci maddəsi):

- böyük ictimai təhlükə törətməyən (qəsdən və ya ehtiyatsızlıqdan törədilən cinayətlərə aiddir, sanksiyalarında ya azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza nəzərdə tutulmamalıdır, ya da azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi iki ildən artıq olmamalıdır);

- az ağır (qəsdən və ya ehtiyatsızlıqdan törədilən cinayətlərə aiddir, sanksiyalarında azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi yeddi ildən artıq olmamalıdır);

- ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan cinayətlər;
- ehtiyatsızlıq səbəbindən törədilən və azadlıqdan məhrum etmə cəzasının yuxarı həddi on iki ildən artıq olmayan əməllər.

**Girov proseduru**

Girov yalnız müdafiə tərəfinin vəsatəti ilə məhkəmə tərəfindən seçilir. Girov qətimkan tədbirinin tətbiqi və ya imtina ilə bağlı məhkəmə qərarından apellyasiya şikayəti vermək hüququ var. Girov qətimkan tədbirinin dəyişdirilməsi və ya ləğvi ancaq məhkəmə qərarı ilə mümkündür.

Təqsirləndirilən şəxs barəsində girov qətimkan tədbiri seçildikdə ittihamın tam həllinədək ondan şəxsiyyətini təsdiq edən pasport və ya digər sənəd götürülür və cinayət işinin materiallarına əlavə olunur (CPM-in 155.6-cı maddəsi).

Girovun məbləği dövlət bankında məhkəmənin depozitinə köçürülməyənədək təqsirləndirilən şəxs həbsdə saxlanılır. Cinayət prosesini həyata keçirən orqan girovun qoyulduğunu təsdiq edən məlumatı əldə etdikdə təqsirləndirilən şəxsin dərhal həbsdən azad edilməsi barədə həbs yerinin rəisinə məlumat verir (CPM-in 164.7-ci maddəsi).

**Girovun miqdarı**

CPM-in 164-cü maddəsinə əsasən, girovun məbləği cinayət nəticəsində vurulmuş ziyandan və ya onun ödənilməmiş hissəsindən artıq olmalı (CPM-in 164.5-1-ci maddəsi), amma həddən artıq yüksək təyin edilməməlidir (CPM-in 164.5-ci maddəsi). Belə ki, girov məbləği böyük ictimai təhlükə törətməyən cinayət törədilməsinə görə verilmiş ittiham üzrə ***beş min manat*** miqdarından az olmamaqla (CPM-in 164.5.1-ci maddəsi), az ağır və ya ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və yaxud ehtiyatsızlıq üzündən ağır cinayətlərin törədilməsinə görə verilmiş ittiham üzrə ***on min manat*** miqdarından az olmamaqla təyin edilir (CPM-in 164.5.2-ci maddəsi).

**Girovun ödənilməsi**

Girov qətimkan tədbiri məhkəmə tərəfindən müəyyən edilmiş pul məbləğini (qiymətli kağız) və ya digər qiymətli əşyaları dövlət bankında məhkəmənin depozitinə qoymaqdan ibarətdir. Girov qismində təkcə pul və digər qiymətli əşyalar deyil, həmçinin məhkəmənin qərarı ilə daşınmaz əmlak da qəbul edilə bilər (CPM-in 164.1-ci maddəsi). Girov həm təqsirləndirilən şəxsin öz əmlakı və vəsaiti, həm də onun yaxın qohumlarının və ya digər fiziki və hüquqi şəxslərin əmlakı və vəsaiti hesabına həyata keçirilə bilər. Girovun dəyərini sübut etmə vəzifəsi isə girov qoyanın üzərinə düşür (CPM 164.3-cü maddəsi).

**Girovun dövlət nəfinə keçirilməsi və ya həbslə əvəzlənməsi**

Prokuror aşağıdakı hallarda girovun dövlət nəfinə keçirilməsi (CPM-in 164.8-ci maddəsi) barədə və girovun həbslə əvəz edilməsi (CPM-in 164.10-cu maddəsi) barəsində məhkəməyə müraciət edir:

- təqsirləndirilən şəxs cinayət prosesini həyata keçirən orqandan gizləndikdə;
- cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırdıqda;
- prokurorun icazəsi olmadan başqa yerə getdikdə.

**Girovun geri qaytarılması**

CPM-in 164.9-cu maddəsinə əsasən girov aşağıdakı hallarda onu qoymuş şəxsə qaytarılır:

- məhkəmənin hökmü qanuni qüvvəyə mindikdən sonra;
- Məcəllənin 164.8-ci maddəsində nəzərdə tutulmuş pozuntuların sübut olunmadığı;
- girov qətimkan tədbirinin ləğv edildiyi, yaxud dəyişdirildiyi bütün hallarda.

Son olaraq girov da daxil olmaqla bütün prosessual məcburiyyət tədbirlərinin praktikada tətbiqi ilə bağlı ilə Ali Məhkəmənin Pelunumunun "Həbs və ev dustaqlığı qətimkan tədbirlərinə dair müraciətlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" Qərarının 1-ci bəndində göstərilir ki. məhkəmələrin diqqəti təqsirləndirilən şəxslər barəsində prosessual məcburiyyət tədbirlərinin tətbiqi ilə bağlı təqdimatlara Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının 5 və 6-cı maddələrinin, cinayət-prosessual qanunvericiliyin tələblərinə ciddi əməl edilməklə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsi nəzərə alınmaqla vaxtında və keyfiyyətli baxılmasının zəruriliyinə cəlb edilsin.

# Beynəlxalq qanunvericilik

Girov qətimkan tədbiri azadlıq və toxunulmazlıq hüququnun təminatına yönəlməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Düzdür, beynəlxalq sənədlərdə onunla bağlı konkret normalar elə də çox olmasa da, azadlıq və toxunulmazlıq hüququnun təminatına dair bir sıra aktlarda nəzərdə tutulmuşdur. Bunlardan biri 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir[5]. Həmin vaxt Azərbaycan SSRİ tərkibində olduğu və SSRİ Bəyannaməyə bitərəf qaldığı üçün bu Bəyannamə Azərbaycan tərəfindən ratifikasiya edilməmişdir. Lakin 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında Bəyannamənin bəzi müddəaları öz əksini tapmışdır.

[5] https://www.coe.int/az/web/compass/the-universal-declaration-of-human-rights-full-version- Ümumdünya İnsan Hüquqları Bəyannaməsi

Bəyannamənin 3-cü maddəsində göstərilir:

- Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

Digər bir akt Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktdır[6]. Pakt Azərbaycan Respublikası tərəfindən 13 avqust 1992-ci ildə təsdiq edilmişdir. Paktın 9-cu maddəsindən mövzu üçün əsas əhəmiyyət kəsb edən bir sıra müddəaları qeyd edək:

- Hər bir insan azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir. Heç kim özbaşınalıqla həbs edilə və ya dustaqda saxlanıla bilməz. Heç kim qanunla müəyyən edilən əsaslardan başqa və qanuni prosedura uyğun olmadan heç bir halda azadlıqdan məhrum edilməməlidir (Bu əsaslar Azərbaycan Respublikası CPM-in 155.1-ci maddəsində nəzərdə tutulub);
- Cinayət ittihamı ilə həbs edilən və ya tutulub saxlanılan hər bir şəxs təcili qaydada məhkəməyə və yaxud məhkəmə hakimiyyətinin həyata keçirilməsinin qanunla həvalə edildiyi 3 digər vəzifəli şəxsə çatdırılır və məntiqi müddət ərzində məhkəmə araşdırması və ya azad edilmə hüququna malikdir. Məhkəmə araşdırmasını gözləyən şəxslərin həbsdə saxlanılması ümumi qayda şəklində olmamalıdır; lakin azadlığa buraxılma məhkəməyə getməyə, məhkəmə araşdırmasının istənilən mərhələsinə gəlməyə və zəruri halda isə hökmün icrası üçün gəlməyə təminat verilməsindən asılı hala salına bilər.
- Həbs və ya dustaq edilmək nəticəsində azadlıqdan məhrum edilən hər kəs işinin məhkəmədə araşdırılması hüququna malikdir ki, bu məhkəmə, təxirə salınmadan onun tutulub saxlanılmasının qanuniliyi barədə qərar çıxarsın və ya əgər onun tutulub saxlanılması qanuni deyilsə, azadlığa buraxılmasına sərəncam versin.
- Qeyri-qanuni həbs və ya dustaq edilmənin qurbanı olan hər bir kəs iddia qüvvəsində olan kompensasiya hüququna malikdir.

Girovla bağlı olan beynəlxalq normaları nəzərdə tutan digər bir akt "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyadır[7]. Azərbaycan bu sənədi 2001-ci il dekabr ayının 25-də ratifikasiya etmişdir.

Konvensiyada girov qətimkan tədbiri ilə bağlı nəzərdə tutulan normalardan biri 6-cı maddədə təsbit edilən ədalətli məhkəmə araşdırması hüququdur. Bu maddəyə əsasən hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

---

[6] https://www.coe.int/az/web/compass/the-international-covenant-on-civil-and-political-rights Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt

[7] https://e-qanun.az/framework/1405 İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Konvensiyanın digər norması girov qətimkan tədbiri üçün xüsusi əhəmiyyət kəsb edən 5.1-ci maddənin (c) bəndidir. 5.1-ci maddəyə əsasən hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Sözügedən maddədə azadlıqdan məhrum edilmənin qanuni halları və qaydası nəzərdə tutulmuşdur. Bunlardan biri də (c) bəndində nəzərdə tutulan hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısına gətirilməsi məqsədi ilə və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud pozuntunu törətdikdən sonra gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsaslar olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınmasıdır.

Bəndin məzmununa əsasən ilk əvvəl hüquq pozuntusunun törədilməsində əsaslı şübhə olmalıdır. İkinci bir məsələ şəxsin qanuni tutulması və həbsə alınması üçün müəyyən olunan məqsədlərdir. Bunlar aşağıdakıllardır:

1. Şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısına gətirilməsi;

2. Onun tərəfindən törədilən hüquq pozuntusunun qarşısını almaq;

3. Pozuntunu törətdikdən sonra gizlənməsinin qarşısını almaq.

Bu zaman əsas şərt odur ki, göstərilən bu 3 məqsədin təmin olunması üçün kifayət qədər zəruri əsaslar olmalıdır.

Konvensiyanın 5.3-cü maddəsinə əsasən**:**

> - bu maddənin 1-ci bəndinin (c) yarımbəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin qarşısına gətirilir;
>
> - ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.

Konvensiyanın 5.4.-cü bəndinə əsasən:

> - tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılması hüququna;
>
> - əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.

Konvensiyanın 5.5-ci bəndinə əsasən bu maddənin müddəalarının pozulması ilə tutulmağa və ya həbsə alınmağa məruz qalan hər kəsin kompensasiya hüququ var.

**AİHM-in Piruzyan Ermənistana qarşı işi üzrə qərarı**

Göstərilən normaların praktikada olan əhəmiyyətini AİHM-in təcrübəsinə əsaslanmaqla müəyyən edə bilərik. Belə ki, AİHM-in mövzu üzrə bir sıra spesifik qəraları var və bunlardan biri də 26 iyun 2012-ci il tarixli Piruzyan Ermənistana[8] qarşı işi üzrə olan qərardır.

**İşin faktları:** Ərizəçi 2006-cı ilin oktyabrında tutuldu və soyğunçuluq ittihamı ilə həbsə alındı. Onun həbsdə saxlanılma müddəti sonradan bir neçə dəfə uzadıldı və bu zaman belə əsas gətirildi ki, o, ədalət mühakiməsindən yayına və ya istintaqa mane ola bilər, habelə əlavə istintaq tədbirlərinin həyata keçirilməsi zəruridir və işin icraatı hələ də davam edir. Ərizəçinin girov müqabilində azad edilməsinə də icazə verilmədi və bu belə əsaslandırıldı ki, o, daxili qanunvericiliyə əsasən "ağır cinayət"də təqsirləndirilir və buna görə də Cinayət-Prosessual Məcəlləsinin 143-cü maddəsinin 1-ci bəndi girov müqabilində azad edilmənin ona tətbiqini qadağan edir, yalnız "böyük ictimai təhlükə törətməyən və az ağır" cinayət törətməkdə təqsirləndirilən şəxslər bu yolla azadlığa buraxıla bilərlər. Son nəticədə ərizəçi 2007-ci ilin dekabrında ona qarşı ittihamlar xitam edildikdən sonra azadlığa buraxıldı.

*Hüquqi məsələlər* – **5-ci maddənin 3-cü bəndi**

a) Girov müqabilində azad edilmənin mümkünsüzlüyü – Şübhəli şəxsi azad etmək və ya həbsdə saxlamaq barədə qərar çıxararkən dövlət orqanları onun sonradan məhkəmə araşdırmasına gəlməsini təmin edən alternativ tədbirlərin tətbiqini nəzərdən keçirməyə borclu idilər. AİHM bir sıra əvvəlki işlərdə qərara alıb ki, girov müqabilində azad edilmə barədə vəsatət daxili qanunvericiliyə əsasən avtomatik olaraq rədd edildikdə 5-ci maddənin 3-cü bəndi pozulmuş olur. Hazırkı işdə ərizəçinin vəsatətləri bu əsasla rədd edilmişdi ki, Cinayət-Prosessual Məcəlləsinin 143-cü maddəsinin 1-ci bəndi "ağır və ya xüsusilə ağır" cinayət kimi tövsif edilən cinayətlər törədildiyi halda girov müqabilində azad edilməni qadağan edir. Ərizəçinin girov müqabilində azad edilmə barədə vəsatətlərinin bu cür avtomatik rədd edilməsi onun həbsə alınmasının konkret halları üzərində məhkəmə nəzarətini mümkünsüz etmişdi və 5-ci maddənin 3-cü bəndində nəzərdə tutulan təminatlara zidd idi.

*Nəticə*: pozuntu baş verib (yekdilliklə)

b) Həbsdə saxlanılmanın davam etdirilməsi üçün əsaslar – Ərizəçi barəsindəki həbs qətimkan tədbirinin müddətinin ardıcıl olaraq uzadılmasına haqq qazandırmaq üçün daxili məhkəmələr,

[8] https://hudoc.echr.coe.int/eng?i=001-111631 CASE OF PIRUZYAN v. ARMENIA (Application no. 33376/07)

birincisi, onun ədalət mühakiməsindən yayınması və istintaq prosesinə maneə yaratması təhlükəsini, ikincisi, istintaqın hələ yekunlaşmaması və işin icraatının davam etməsi faktını əsas gətirmişdilər. Sonuncu məsələ ilə bağlı Məhkəmə qeyd etdi ki, əlavə istintaqın zəruriliyi və ya işin icraatının yekunlaşmaması şəxsin məhkəmə araşdırmasına qədər həbsdə saxlanılması üçün 5-ci maddənin 3-cü bəndinin məqsədləri baxımından qəbul edilə bilən səbəblər deyil. Ərizəçinin ədalət mühakiməsindən yayınma və istintaq prosesinə maneə yaratması təhlükəsinə gəlincə, daxili məhkəmələr öz qərarlarında bu əsasları mücərrəd və şablon qaydada təkrarlamaqla kifayətlənib və onları nəyə görə əsaslı səbəb hesab etdiklərini göstərməyib. Ərizəçinin təqsirləndirildiyi cinayət əməlinin ciddi xarakterinin ümumi şəkildə qeyd edilməsi yetərli əsaslandırma sayıla bilməz. Beləliklə, daxili məhkəmələr ərizəçinin həbsdə saxlanılması üçün "münasib və yetərli" əsaslar gətirməyib.

*Nəticə*: Konvensiyanın 5.3-cü maddəsi pozulmuşdur

# 5. Regional müqayisə

**Rusiya Federasiyası**nın Cinayət-Prosessual Məcəlləsinə əsasən girov, cinayət işi üzrə cinayət prosesinin gedişində istənilən vaxt seçilə bilər. Məcəlləyə görə, girov şübhəli və ya təqsirləndirilən şəxs yaxud digər fiziki və ya hüquqi şəxs tərəfindən ibtidai istintaq mərhələsində cinayət işinə rəhbərlik edən orqana, məhkəmə araşdırması mərhələsində isə məhkəməyə daşınmaz əmlak və ya qiymətli kağızlar, əşyalar, pul və Rusiya Federasiyasında ictimai dövriyyəyə buraxılmış səhmlər və istiqrazlar şəklində daşınar əmlak verilməsindən ibarətdir.

Girov qətimklan tədbirinin məqsədi şübhəli və ya təqsirləndirilən şəxsin yeni cinayət törtəməsinin qarşısını almaq və onun istintaq orqanı və ya məhkəməyə vaxtlı-vaxtında gəlməsini təmin etməkdən ibarətdir.

Rusiya CPM-nin 108-ci maddəsinə əsasən girovun tətbiqi haqqında vəsatət ibtidai istintaqın aparıldığı yer üzrə məhkəməyə verilir. Girovun növü və məbləği törədilmiş cinayətin xarakteri, şübhəli və ya təqsirləndirilən şəxsin şəxsiyyəti, girov qoyan şəxsin əmlak vəziyyəti nəzərə alınmaqla məhkəmə tərəfindən müəyyən edilir. Ancaq, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər üzrə cinayət işlərində girovun məbləği əlli min rubldan, ağır və xüsusilə ağır cinayətlər üzrə cinayət işlərində isə beş yüz min rubldan az ola bilməz.

Göründüyü kimi, Azərbaycandan fərqli olaraq, Rusiya Federasiyasında girov qətimkan tədbiri bütün növ cinayətlər üçün nəzərdə tutulub.

Rusiya Federasiyasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq tutula bilməyən əmlak girov kimi qəbul edilə bilməz.

Rusiya Federasiyasında daşınmaz əmlak, səhmlər və istiqrazlar, qiymətli əşyalar girov kimi qəbul edilə bilər, bir şərtlə ki, girov qoyanın girov qoyulmuş əmlaka mülkiyyət hüququnu təsdiq edən sənədlərin əsli təqdim olunsun və həmin əmlak üzərində heç bir məhdudiyyət (yüklülük) olmasın. Girov predmeti olan pul müvafiq məhkəmənin və ya cinayət işinə baxan orqanın depozit hesabına mədaxil edilir.

Girovun məhkəmə və ya cinayət işinə baxan orqan tərəfindən qəbul edilməsi haqqında protokol tərtib edilir və sənədin surəti girov qoyana verilir.

Əgər girov şübhəli və ya təqsirləndirilən şəxs olmayan şəxs tərəfindən qoyulursa, onda ona şübhənin mahiyyəti, ittiham, bu qətimkan tədbiri ilə bağlı öhdəliklər və bu öhdəliklərin pozulmasının nəticələri izah edilir.

Qonşu ölkənin cinayət prosessual qanunvericiliyinə görə, girovun tətbiqi barədə məhkəmənin qərarında məhkəmə girovun ödənilməsi müddətini müəyyən edir. Əgər şübhəli və ya təqsirləndirilən şəxs tutulubsa, məhkəmə həbsi qanuni və əsaslı hesab etmək şərti ilə həbsdə

saxlama müddətini girov ödənilənə qədər, lakin məhkəmə qərarının qəbul edildiyi andan 72 saatdan çox olmamaq şərti ilə uzadır.

Girov müəyyən edilmiş müddətdə ödənilmədikdə, məhkəmə Rusiya Cinayət-Prosessual Məcəlləsinin 108-ci maddəsinə uyğun olaraq verilmiş vəsatət əsasında şübhəli və ya təqsirləndirilən şəxs barəsində başqa qətimkan tədbirinin seçilməsi məsələsinə baxır.

Şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən girovla bağlı qoyulmuş öhdəliklər pozulduqda, girov Rusiya Federasiyası Cinayət-Prosessual Məcəlləsinin 118-ci maddəsinə uyğun olaraq çıxarılan məhkəmə qərarı ilə dövlət nəfinə keçirilir. Digər hallarda, məhkəmə hökm çıxararkən və ya cinayət işinə xitam verilməsi haqqında qərar qəbul edərkən girovun girov qoyan şəxsə qaytarılması haqqında qərar qəbul edir[9].

**Gürcüstan Respublikası**nın Cinayət-Prosessual Məcəlləsinin[10] 200-cü maddəsinə əsasən girov pul məbləği və ya daşınmaz əmlakdır. Pul məbləği Gürcüstan Ədliyyə Nazirliyinin yurisdiksiyasında olan publik hüquqi şəxs Milli İcra Bürosunun depozit hesabına təqsirləndirilən şəxs tərəfindən və ya onun adından və ya onun xeyrinə başqa şəxs tərəfindən qoyulur. Girovun məqsədi təqsirləndirilən şəxsin qanunauyğun davranışı və onun müstəntiq, prokuror, məhkəmə qarşısına vaxtında gəlməsini təmin etmək barədə məhkəmə qarşısında götürülən yazılı öhdəlikdir.

Gürcüstan Respublikasında griov qətimkan tədbirinin tətbiqi cinayətlərin təsnifatı ilə məhdudlaşdırılmayıb.

Pul məbləği əvəzinə depozitə qoyulmuş daşınmaz əmlaka həbs qoyulur. Girovun qəbulu haqqında protokol tərtib edilir, onun bir nüsxəsi girov qoymuş şəxsə verilir.

Prokuror təqsirləndirilən şəxs barəsində girov qətimkan tədbirinin tətbiqi barədə məhkəməyə vəsatət verərkən girovun məbləğini və onun ödənilməsi müddətini göstərir. Girovun məbləği müəyyən edildikdən sonra təqsirləndirlən şəxs, onun adından və ya onun xeyrinə başqa şəxs girovun məbləği əvəzinə pul məbləği ekvivalentində daşınmaz əmlakı depozitə qoya bilər.

Görünüdüyü kimi, bu ölkədə girov qətimkan tədbirinin tətbiqi barədə vəsatət prokuror tərəfindən təqdim edilir.

Girovun məbləği törədilmiş cinayətin ağırlığı və təqsirləndirilən şəxsin əmlak imkanları nəzərə alınmaqla müəyyən edilir.

Gürcüstan cinayət prosessual qanunvericliyinə görə, girovun məbləği 1000 laridən az ola bilməz.

---

[9] **http://www.consultant.ru/document/cons_doc_LAW_34481/**

[10] **https://www.matsne.gov.ge/ru/document/download/90034/37/ru/pdf**

Bu, Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş girov məbləğinin aşağı həddi (5000 manat) ilə müqayisədə daha real və əlçatan hesab edilər bilər.

Prokuror təqsirləndirilən şəxs barəsində girov qətimkan tədbirinin tətbiq edilməsi barədə vəsatətlə istintaqın aparıldığı yer üzrə məhkəməyə müraciət edir.

Əgər təqsirləndirilən şəxs məhkəmənin girov şəklində təyin etdiyi pul məbləğinin və ya daşınmaz əmlak hüququnun Milli İcra Bürosunun depozit hesabına qoyulmasını müəyyən edilmiş müddət ərzində təmin etmədikdə, prokuror daha sərt prosessual məcburiyyət tədbirlərin tətbiq edilməsi üçün məhkəməyə vəsatət təqdim edir.

Məhkəmə, prokurorun təqdimatı və ya öz təşəbbüsü ilə girovun tətbiqini təmin etmək məqsədi ilə təqsirləndirilən şəxs tərəfindən girovun tam və ya qismən (lakin girov məbləğinin 50 faizindən az olmamaqla) ödənilməsinə qədər onu tuta bilər.

Girovun qoyulmasını prokuror və ya məhkəmə tərəfindən təsdiq edir.

Barəsində girov qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxs bu tədbirin tətbiqi şərtlərini və ya qanunu pozduqda, prokurorun vəsatəti və məhkəmənin qərarı ilə girov daha sərt qətimkan tədbiri ilə əvəz edilir. Eyni zamanda, girov qoyulmuş pul məbləği dövlət büdcəsinə keçiirlir, daşınmaz əmlak isə, girov şəklində ödənilməsi üçün təyin edilmiş pul məbləğinin geri qaytarılması üçün Gürcüstanın “İcra icraatı haqqında" Qanunu ilə müəyyən edilmiş qaydada icra üçün müraciət edilir.

Gürcüstan qanunvericiliyinə görə, təqisləndirlən şəxs onun üzərinə qoyulmuş öhdəlikləri dəqiq və vicdanla yerinə yetirdikdə, eyni zamanda, onun barəsində seçilmiş prosessual məcburiyyət tədbiri daha sərt prosessual məcburiyyət tədbiri ilə əvəz edilmədikdə, hökmün icrasından sonra bir ay ərzində girov kimi qoyulmuş pul məbləği, girov qoyulduğu vaxt mövcud olan məzənnə nəzarə alınmaqla, tam həcmdə təqsirləndirlən şəxsə və ya onun xeyrinə girov qoymuş şəxsə geri qaytarılır. Bu qayda, girov qoyulmuş daşınmaz əmlaka da aiddir.

İş üzrə yekun qərarı çıxarılanadək təqsirləndirlən şəxsin xeyrinə girov qoymuş şəxsin prokurora yaxud məhkəməyə təqsirləndirilən şəxsin lazımi qanunauyğun davranışını və onun vaxtlı-vaxtında müstəntiq, prokuror və yaxud da məhkəməyə gəlişini təmin etmək iqtidarında olmaması barədə yazılı müraciəti əsasında bir ay ərzində girov qoyulmuş pul məbləği, girov qoyulmuş vaxtın məzənnəsinə uyğun olaraq inflyasiya göstəriciləri nəzərə alınmaqla tam həcmdə girov qoymuş şəxsə geri qaytarılır. Bu qayda daşınmaz əmlakla bağlı da keçərlidir. Bu halda təqsirləndirilən şəxs barəsində daha sərt qətimkan tədbiri seçilə bilər.

İşə baxan məhkəmənin və ya prokurorun qərarı Milli İcra Bürosuna təqdim edildikdən sonra girov məbləği girovu qoymuş şəxsə geri qaytarılır.

Təqsirləndirilən şəxs üzərinə qoyulmuş vəzifələri vicdanla yerinə yetirdikdə, prokuror girovun məbləğinin azaldılması barədə istintaq yeri və ya yurisdiksiya üzrə məhkəməyə vəsatətlə müraciət etmək hüququna malikdir. Bu vəsatətə təqdim edildiyi vaxtdan 24 saat ərzində baxılır.

**Ermənistan Respublikası** Cinayət-Prosessual Məcəlləsinin[11] 143-cü maddəsinə əsasən girov, böyük ictimai təhlükə törətməyən və az ağır cinayət törətməkdə təqsirləndirilən şəxsin həbsdən azad edilməsi üçün bir və ya bir neçə şəxs tərəfindən məhkəmənin depozitinə qoyulmuş pul, qiymətli kağız və digər qiymətli əşyalardan ibarət ola bilər.

Məhkəmənin icazəsi ilə daşınmaz əmlak da girov kimi qoyula bilər. Girovun dəyəri girovu qoyan şəxs tərəfindən sübuta yetirilir.

Ermənistan qanunvericiliyinə görə, məhkəmənin müəyyən etdiyi girovun məbləği aşağıdakılardan az olmamalıdır:

1. Böyük ictimai təhlükə törətməyən cinayətlər üzrə - minimum əmək haqqı məbləğinin 200 misli miqdarında;

2. Az ağır cinayətlər üzrə - minimum əmək haqqı məbləğinin 500 misli miqdarında.

Girov təyin edilməsi haqqında bildiriş aldıqdan sonra cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin azadlığa buraxılmasına göstəriş verir.

Təqsirləndirilən şəxs cinayət prosesini həyata keçirən orqandan gizləndikdə və ya onun icazəsi olmadan başqa yerə köçdükdə, prokuror girovun məbləğinin dövlət büdcəsinə tutulması barədə vəsatətlə məhkəməyə müraciət edir.

Girovu qoyan şəxs girovun müsadirə edilməsi haqqında məhkəmənin qərarından yuxarı instansiya məhkəməsinə şikayət verə bilər.

Təqsirləndirilən şəxsin cinayət prosesini həyata keçirən orqandan gizlənməsi və ya onun icazəsi olmadan başqa yerə köçməsi sübuta yetirilmədikdə və ya girov ləğv edildikdə və yaxud da qətimkan tədbiri kimi dəyişdirildikdə, girov məbləği, girov qoymuş şəxsə qaytarılır.

Cinayət prosesini həyata keçirən orqan tərəfindən bu qətimkan tədbirinin ləğvi və ya dəyişdirilməsi haqqında qərar qəbul edilərkən girov məbləği də qaytarılır.

Qanunla təqsirləndirilən şəxsin üzərinə qoyulmuş öhdəliklər və məhdudiyyətlər pozulduqda, girov ləğv edilə və şəxs həbs oluna bilər.

---

[11] http://parliament.am/law_docs/010998HO248eng.pdf?lang=eng

# 6. Praktikada vəziyyət

## İnformasiya sorğuları və nəticələri

Hesabat çərçivəsində girov qətimkan tədbirinin praktikada işləklik səviyyəsini müəyyənləşdirmək üçün Bakı şəhərinin 12 rayon məhkəməsinə aşağıdakı sorğuyla müraciət edilmişdir:

> *“Son 5 (beş) ildə - 2016-2021-ci illər ərzində girov qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə müdafiə tərəfinin neçə vəsatəti daxil olub və həmin vəsatətlərdən neçəsi təmin, neçəsi isə rədd olunub?”*

Dövlət Statistika Komitəsinə (DSK) isə aşağıdakı məzmunda sorğu göndərilib:

> *“2001-2021-ci illər ərzində Azərbaycanda məhkəmələr tərəfindən girov qətimkan tədbirinin seçilməsinə dair neçə qərar qəbul edilib?”*

12 rayon məhkəməsinə göndərilən sorğulardan 2-i ümumiyyətlə cavabsız qalıb (Qaradağ və Nəsimi rayon məhkəmələri), 5-i müxtəlif əsaslarla sorğuya cavab verməkdən imtina edib (Xəzər rayon Məhkəməsi[12], Yasamal rayon Məhkəməsi[13], Nizami rayon Məhkəməsi[14], Xətai rayon Məhkəməsi[15], Suraxanı rayon Məhkəməsi[16]) və ancaq 5-i sorğuya cavab verib (Binəqədi rayon Məhkəməsi, Nərimanov rayon Məhkəməsi, Səbail rayon Məhkəməsi, Pirallahı rayon Məhkəməsi, Sabunçu rayon Məhkəməsi).

İnformasiya sorğusuna cavab verən 5 rayon məhkəməsinin cavabları aşağıdakı kimidir:

---

[12] Xəzər Rayon Məhkəməsinin imtina səbəbi - mövzuya dair məhkəmə təcrübəsinin ümumiləşdirilməsi aparılmadığından sorğunuzun təmin edilməsi imkan xaricindədir

[13] Yasamal Rayon Məhkəməsinin imtina səbəbi – İnformasiya əldə etmək haqqında AR qanunun 21-ci maddəsinin 21.1.1 bəndinə əsasən (... sorğuçunun bu informasiyanı əldə etməyə səlahiyyəti çatmadıqda və ya bu Qanunla tələb edildiyi hallarda, sorğuçu şəxsiyyətini təsdiq edən sənəd təqdim etmədikdə)

[14] Nizami Rayon Məhkəməsinin imtina səbəbi – ... sorğunuzda qeyd olunan informasiyanı hansı məqsədlə əldə etmək istədiyiniz, eləcə də özünüzlə (qulluq mövqeyiniz) bağlı məlumatlar əksini tapmadığından müraciətin cavablandırılması mümkün olmamışdır.

[15] Xətai Rayon Məhkəməsinin imtina səbəbi - sorğunuzda qeyd olunan informasiyanı hansı məqsədlə əldə etmək istədiyiniz, həmçinin şəxsiyyətinizi təsdiq edən sənəd təqdim edilmədiyindən müraciətinizin müraciətin cavablandırılması mümkün olmamışdır.

[16] Suraxanl Rayon Məhkəməsinin imtina cavabı - girov qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəməyə son beş ildə müdafiə tərəfinin neçə vəsatətinin daxil olduğuna dair məlumatın təqdim olunması üçün müvafiq kateqoriyalı işlər arxivdən qaldırılaraq nəzərdən keçirilməli, təhlil olunmalı və aidiyyati informasiya sistemləşdirilməlidir. Qeyd olunan işlərin görülməsi isə məhkəmənin bir neçə əməkdaşının cəlb olunmasını tələb edir ki, bu da həmin əməkdaşların gündəlik vəzifələrinin icrasını ciddi maneə törədəcək. Göstərilənlərə əsasən və “İnformasiya əldə etmək haqqında” AR qanununun 21.2.3-21.2.5-ci maddələrini rəhbər tutaraq sorğunuzun cavablandırılmasını mövcud vəziyyətdə mümkün hesab etmirik.

- 2016-2021-ci illər ərzində məhkəməyə girov qətimkan tədbirinin seçilməsi ilə bağlı **vəsatət daxil olmamışdır** (Binəqədi rayon Məhkəməsi, Pirallahı rayon Məhkəməsi, Sabunçu rayon Məhkəməsi);

- Məhkəmədə 2016-2021-ci illərdə girov qətimkan tədbirinin seçilməsi ilə bağlı **materiallara baxılmamışdır** (Nərimanov rayon Məhkəməsi);

- bununla əlaqədar məhkəmədə **hər hansı bir məlumat yoxdur** (Səbail rayon Məhkəməsi);

Dövlət Statistika Komitəsi isə aşağıdakı əsasla sorğuya cavab verməkdən imtina etmişdir:

- Sorğu olunan məlumatlar Ədliyyə Nazirliyi tərəfindən təqdim olunan göstəricilər siyahısına daxil olmadığından onların əldə edilməsi üçün aidiyəti üzrə müraciət etməyiniz məqsədəmüvafiqdir.

*Qeyd: Sorğu üzrə tələb etdiyimiz məlumatlar statistik xarakter daşıyır və Dövlət Statistika Komitəsində olmalı olan məlumat idi. Tələb olunan informasiyanın tamı DSK-da yox Ədliyyə Nazirliyində olduğu təqdirdə bu zaman "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə əsasən sorğu edilən informasiya informasiya sahibində yoxdursa, o, aidiyyəti informasiya sahibini müəyyənləşdirməli və informasiya sorğusunu ləngitmədən, lakin 5 iş günündən gec olmayaraq ona göndərməli, bu barədə sorğuçuya məlumat verməlidir.*

## Vəkillər arasında keçirilən sorğu və nəticələri

Vəkillər arasında keçirilən sorğuda, cinayət işləri üzrə ixtisaslaşmış müxtəlif müddətli peşə fəaliyyəti təcrübəsi olan 45 vəkil seçilmiş və onlardan 14-ü ilə əlaqə qurmaq mümkün olmuşdur. Bu vəkillərdən 2-i əyalətdə, 12-i isə Bakı şəhərində fəaliyyət göstərir. Vəkilləri peşə fəaliyyət müddətləri üzrə aşağıdakı qaydada qruplaşdırmaq olar:

1) 1-5 il; 2) 6-10 il; 3) 11-15 il; 4) 16-20 il 5) 21-25 il; 6) 26-30 il

Sorğuda iştirak etmiş vəkillərdən 1-ci qrupa iki vəkil, 2-ci qrupa dörd vəkil, 3-cü qrupa beş vəkil, 4-cü qrupa iki vəkil, 6-cı qrupa isə bir vəkil aiddir ( 5-ci qrupa aid vəkil yoxdur).

Göstərilən vəkillərin heç biri təcrübəsi müddətində girov qətimkan tədbirinin tətbiq olunması ilə bağlı məhkəmədə vəsatət qaldırmayıb, yalnız 1 vəkil istisnadır, hansı ki 3-cü qrupa aiddir.

Vəkillərdən girov qətimkan tədbirinin təcrübədə tətbiq olunmamasıının səbəbləri və bu vəziyyətin aradan qaldırılması ilə bağlı təklifləri soruşulmuşdur. Ancaq, sorğuya qatılan vəkillərdən 5-i mövcud vəziyyətin səbəbləri ilə əlaqədar ətraflı məlumata malik olmaması ilə əlaqədar fikir bildirməmişdir.

Qalan 9 vəkilin bildirdiyi fikirləri yuxarıda göstərilmiş kateqoriyalar üzrə qruplaşdıraq:

**Qanunvericiliklə bağlı problemlər:**

- Qanunvericilikdə boşluqlar, qeyri-müəyyənlik və girov qətimkan tədbirinin tətbiqinin konkret mexanizminin olmaması;
- Girov məbləğinin həddindən artıq yüksək olması və əhalinin gəlir səviyyəsi ilə ziddiyyət təşkil etməsi.

**Praktika ilə bağlı problemlər:**

- Əsaslandırılmış məhkəmə təcrübəsinin yoxluğu;
- Müdafiə tərəfinin daha çox ev dustaqlığı qətimkan tədbirinə üstünlük verməsi;
- Səlahiyyətli orqanların girov qətimkan tədbirinin tətbiq praktikasını artırmağa dair təşəbbüskarlığının olmaması;
- İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun girovun qeyri-mümkünlüyü ilə bağlı qəti subyektiv fikri, onun tətbiqində maraqlı olmaması və buna maneçilik yaratması.

Göründüyü kimi, girov qətimkan tədbiri qanunda nəzərdə tutulsa da, əslində, “ölü norma”ya çevrilib və faktiki olaraq tətbiq edilmir.

# 7. Nəticə

Aparılan sorğular, qanunvericiliyin monitorinqi nəticəsində əldə olunmuş faktlara əsasən girov qətimkan tədbirinin Azərbaycan Respublikasında tətbiq vəziyyəti ilə bağlı aşağıdakı nəticələri qeyd etmək olar:

Girov qətimkan tədbiri ilə bağlı qanunvericilikdə bir sıra boşluqlar mövcuddur. Bunlardan ən əsası girovun məbləğinə dair normadır. Müvafiq cinayətlər üçün müəyyən olunmuş minimum girov məbləği insanların real qazancları ilə ziddiyyət təşkil edir və bütün təbəqələrin maddi imkanları ilə qeyri-mütənasibdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 dekabr 2021-ci il tarixli Sərəncamına əsasən 2022-ci il yanvarın 1-dən ölkədə minimum əməkhaqqı 300 manat müəyyən edilib. Əvvəllər isə Azərbaycanda minimum əmək haqqı 250 manat təşkil edirdi.

*Qeyd: 2022-ci ilin yanvar ayında Azərbaycanda minimum əmək haqqı 300 manat[17], orta aylıq nominal əmək haqqı isə 765,9 manat olub[18].*

Qanunvericilikdə isə girovun minimum məbləği böyük ictimai təhlükə törətməyən cinayət törədilməsinə görə verilmiş ittiham üzrə — beş min manat, az ağır və ya ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və yaxud ehtiyatsızlıq üzündən ağır cinayət törədilməsinə görə verilmiş ittiham üzrə — on min manat müəyyənləşdirilib. Bu isə minimum əmək haqqı və ya orta aylıq nominal əmək haqqı məbləği ilə girovun minimum məbləği arasındakı aşkar uyğunsuzluğun olduğunu üzə çıxarır.

Girov məbləği ilə əlaqədar digər bir qeyri-müəyyənlik yaradan norma CPM-in 164.5-1-ci maddəsidir. Həmin normada göstərilir ki, girovun məbləği cinayət nəticəsində vurulmuş ziyandan və ya onun ödənilməmiş hissəsindən artıq olmalıdır. Ancaq, grovun məbləğinin vurulmuş ziyandan və ya onun ödənilməmiş hissəsindən nə qədər artıq olmalı olduğu aydın deyil. Bunun hesablanmasının hansı meyara əsaslandığı, dəqiq müəyyənləşdirmə mexanizmi cavabsız suallar yaradır.

Digər bir boşluq tətbiq sferasına aid olan cinayətlərlə bağlıdır. Belə ki, qanunvericiliyə əsasən girovun tətbiq sferasına yalnız böyük ictimai təhlükə törətməyən, az ağır və ya ictimai təhlükəliliyi yalnız maddi ziyanla bağlı olan və yaxud ehtiyatsızlıq üzündən törədilən ağır cinayətlər aiddir. Başqa sözlə, qanunvericlikdə qəsdən ağır və xüsusilə ağır cinayətlər üçün girov nəzərdə tutulmamışdır ki, bu da girov qətimkan tədbirinin tətbiq arealını əhəmiyyətli şəkildə daraldır.

---

[17] https://www.sosial.gov.az/post_509945 İşçilərin minimum əmək haqqı 2022-ci il yanvarın 1-dən 300 manatdan az ola bilməz

[18] https://www.stat.gov.az/news/index.php?id=5155 İqtisadiyyatda işləyənlərin sayı və əməkhaqqı barədə

Vəkillər və məhkəmələr arasında keçirilən sorğuya əsasən giov qətimkan tədbiri praktikada tətbiq olunmur və bunun aşağıda sadalanan səbəbləri var:

- girovun məbləğinin maddi baxımdan əlverişli olmaması;
- qanunvericilikdəki boşluqlar və tətbiq mexanizmlərinin aydın olmaması;
- formalaşmış vahid məhkəmə təcrübəsinin yoxluğu;
- müdafiə tərəfinin ev dustaqlığı qətimkan tədbirinə üstünlük verməsi;
- ibtidai istintaq orqanlarının, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun girov qətimkan tədbirinin tətbiqində maraqlı olmaması və bir çox hallarda əsassız olaraq həbs qətimkan tədbirinə üstünlük verilməsi;
- bir sıra hallarda isə girov qətimkan tədbirinin tətbiq prosedurunun uzun çəkməsi ilə əlaqədar təqsirləndirilən şəxsin bunda maraqlı olmaması.

# 8. Tövsiyələr

Göstərilən problemlərin həlli üçün ilk növbədə qanunvericilikdəki boşluqlar və qeyri-müəyyənliklər aradan qaldırılmalıdır ki, praktikada girov qətimkan tədbirinin tətbiqi üçün real mexanizmlər formalaşa bilsin. Hesab edirik ki, Cinayət-Prosessual Məcəllədə ilk dəyişiklik girovun məbləği ilə bağlı həyata keçirilməlidir. Belə ki, geniş əhali təbəqələrinin yaşam səviyyəsi, minumum və orta aylıq əmək haqqı nəzərə alınmaqla girovun tətbiqini reallaşdırcaq real, əlçatan məbləğ müəyyən olunmalıdır.

Hesabatdan çıxan ümumi nəticəyə və göstərilənlərə əsasən tövsiyələri orqanlara müvafiq olaraq aşağıdakı kimi qruplaşdırmaq olar.

Azərbaycan Respublikasının Milli Məclisi:

- Mili Məclis girov qətimkan tədbiri ilə bağlı Cinayət-Prosessual Məcəllədə əks olunmuş normalara yenidən baxmalı, mövcud boşluqların aradan qaldırılması üçün qanunvericiliyə əlavə və düzəlişlər etməli, bu qətimkan tədbirinin sadələşdirilmiş tətbiq mexanizmini nəzərdə tutan normalar qəbul etməlidir;
- Girov qətimkan tədbirinin qəsdən ağır və xüsusilə ağır cinayətlərə görə də tətbiq edilməsi qanunvericiliyə gətirilməlidir.
- Girov məbləği əhalinin real gəlirlərinə uyğunlaşdırılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti:

- Girov qətimkan tədbirini xarakterizə edən və onun tətbiqini nəzərdə tutan fərman və sərəncamlar qəbul etməlidir;

Azırbaycan Respublikasının Ali Məhkəməsi:

- Məhkəmələrdə girov qətimkan tədbiri, eləcə də onun tətbiqi ilə bağlı hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin yaradılması və formalaşdırılması üçün ciddi tədbirlər görməli, Plenumun uyğun qərarı qəbul edilməlidir;
- Məhkəmələr girovla bağlı məbləğ müəyyən olunan zaman hər bir şəxsin maddi və ailə vəziyyətini ətraflı araşdırılmalı, təqsirləndirilən şəxsin vəkili ilə bu istiqamətdə çevik əməkdaşlıq etməlidir;
- Həbs qətimkan tədbinin seçilməsi ilə bağlı istintaq orqanlarının təqdimatlarına baxılarkən bu qətimkan tədbirinin seçilməsi üçün maddi və prosessual hüquqi əsasların olub-olmaması ətraflı araşdırılmalı, həbslə bağlı olmayan qətimkan tədbirlərinə üstünlük verilməlidir. Bu zaman hakimlər **cinayət mühakimə icraatının əsas prinsipləri və şərtlərin ciddi əməl etməlidir**;

Azərbaycan Respublikası Baş Prokurorluğu:

- Prokurorluq əməkdaşlarının həbslə bağlı olmayan qətimkan tədbirləri, o cümlədən girov qətimkan tədbiri ilə bağlı mövzularda ardıcıl təlimlərə cəlb edilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir;
- İbtidai istintaq orqanları tərəfindən həbslə bağlı olamayan qətimkan tədbirlərinin, o cümlədən girov qətimkan tədbirinin geniş tətbiq olunması üçün təbşəbbüs göstərmələrini təşviq etməlidir;
- Məhkəmələrə təqsirləndirilən şəxslər barədə qətimkan tədbirlərinin seçilməsi ilə bağlı təqdimatlarla müraciət edərkən subyektiv mülahizələrdən və qeyri-prosessual münasibətlərdən çəkinməlidir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası:

- Vəkillərin azadlıq və toxunulmazlıq hüququ, o cümlədən, girov qətimkan tədbiri ilə bağlı mövzularda davamlı təlimlərə cəlb edilməsi həyata keçirilməli, vəkillərin məhkəmələrdə girov qətimkan tədbirinin tətbiqinə dair vəsatətlə çıxış etmələri təşviq edillməlidir.

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI

-